# Sahib ƏLİYEV - 85



Hörmətli Sahib müəllim! Sizi - tanınmış şair və publisisti yubileyiniz - 85 illiyiniz münasibətilə təbrik edirik.

Siz bədii yaradıcılığa hələ orta məktəb illərində başlamısınız. İndiyədək 25 kitabınız işıq üzü görüb. "Qızımın yaşıdı qızlar", "Səni gözləyə-gözləyə", "Qəm üstündə bayatı", "Dünya gileysiz olmaz", "Bu dünyanı bir də tanı", "Şair xəyalında yaşayan adam", "Kim ki bu dünyanı güldürə bilsə", "Dünyanın dərdidi mənim dərdlərim", "İnsana sualım var" və başqa kitablarınız oxucular tərəfindən maraqla qarşılanıb. Üç cilddən ibarət "Seçilmiş əsərləri"niz isə həmin marağı daha da artırıb.

Sizin uşaq ədəbiyyatı sahəsindəki yaradıcılığınız da diqqəti cəlb edir. "Mən babamla yaşıdam", "Sənin adın bəs nədir", "Nağıllı nənələr, ağıllı nəvələr" kitablarınızı oxuyanlar şeirlərinizi uşaq ədəbiyyatının uğurları kimi qiymətləndirirlər.

Publisistika sahəsində də uğurlarınız çoxdur. İndiyədək ayrı-ayrı qəzet və jurnallarda yüzlərlə publisistik yazılarınız dərc edilib və nəşriyyatlar tərəfindən "Kölgəmlə söhbət", "Yeri görünən adam", "Bizə qalan xatirələr", "Siz, ey yaxşı adamlar" adlı kitablarınız nəşr olunub.

Sizin yaradıcılığınız oxucularla yanaşı, ədəbi tənqidlə məşğul olan mütəxəssislər tərəfindən də yüksək qiymətləndirilir. Bu qiymətin nəticəsidir ki, sizə respublikanın Əməkdar jurnalisti fəxri adı verilib. Həmçinin, bir sıra orden və medallar, habelə fəxri fərmanlarla təltif olunmusunuz, "Qızıl qələm" media mükafatı laureatısınız. Haqqınızda beş kitab ("Çaylar dənizə qovuşanda", "Sözün Sahibi və ya Sahibin sözü", "Şəxsiyyət yaradıcılıqla üst-üstə düşəndə", "Dördüncü kitab", "Yaradıcılıq yollarında") yazılıb.

Siz Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirdikdən sonra bir müddət Yardımlı şəhər 1 saylı orta məktəbdə Azərbaycan dili və ədəbiyyatı fənnindən dərs demisiniz. Sonra uzun müddət Yardımlıda çıxan "Zirvə" qəzetinin redaktoru olmusunuz. 1997-ci ildə Bakıya köçəndən sonra isə əvvəlcə "Siyasət" nəşriyyatının, daha sonra Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəşriyyatının direktoru vəzifələrində çalışmısınız.

Hörmətli Sahib müəllim! Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

**Ədəbiyyat qəzeti.- 2023- cü il.- 7 yanvar.- S. 19.**